**Orucov, Tahir**. Könlüm keçir Qarabağdan / T. Orucov // 525-ci qəzet. - 2020. - 24 noyabr. - **№ 159**. - S. 10.

Bu adda yazı yazmaq iki dəfə fikrimdən keçib. Birinci dəfə 1992-ci ilin 8 mayında - biz Şuşanı itirəndə, ikinci dəfə 28 il sonra - 2020-ci ilin 8 noyabrında - Şuşanın işğaldan azad olunması xəbərini eşidəndə... Birinci dəfə fikirləşmişəm ki, bu ağır anlarda kaş Şuşada ola biləydim və nəsə bir köməyim dəyəydi... Və bir də fikirləşmişəm ki, doğma Suşamız gözəl bir bahar günündə əldən gedəndən sonra daha bahar da bizdən küsüb gedəcək, bir də bu yerlərə gəlməyəcək... İkinci dəfə bu adı ona görə fikirləşmişəm ki, Qələbə günü ruhən, qəlbən də olsa Suşada ola biləydim və sevincimi əziz Şuşamızla, onu işğaldan azad edən igid əsgərlərimizlə bölüşə biləydim...

Çox təəssüf ki, birinci dəfə, 1992-ci ilin 8 mayında - Şuşanı itirəndə fikirlərimi yaza bilmədim. Ona görə ki, bu kədərli ağır faciəyə uyğun və heç olmazsa özümü ovundurmaq üçün münasib sözlər, ifadələr tapa bilmədim... İkinci dəfə isə bu yaxınlarda - aradan 28 il keçəndən sonra, 2020-ci ilin 8 noyabrında - Şuşanın işğaldan azad olunduğu xəbərini eşidəndə bu fikrə yenidən düşdüm...

Hər bir xalqın həyatında elə şəhərlər, elə yerlər olur ki, o yerlər, o şəhərlər həmin xalqın xüsusi qürur və fəxarət mənbəyinə çevrilir. Şuşa azərbaycanlılar üçün belə yerlərdən, belə şəhərlərdəndir. Şuşa Azərbaycanın mədəniyyət beşiyidir. Şuşa bizim əziz, müqəddəs, şəhərimiz, “Qafqazın Parisi”, nəhayətdə Azərbaycanın, Qarabağın incisi, doğma Vətənimizin bir hissəsidir.

Belə bir fikir var ki, əgər Azərbaycan bütöv bir bədəndirsə, bu bədənin ürəyi Qarabağdır. Qarabağın incisi olan Suşa isə Azərbaycanın ən dilbər guşəsi, musiqi beşiyi, Cabbar Qaryağdıoğlu, Keçəçi Məhəmməd, Məşədi Dadaş, Sadıqcan, Üzeyir Hacıbəyov, Bülbül, Fikrət Əmirov, Xan Şuşinski və daha onlarla məşhur musiqiçilər diyarıdır. Səfalı yaylaqları, göz oxşayan meşələri, füsünkar Cıdır düzü, soyuq İsa bulağı, Turşsuyu Qarabağı, Şuşanı bütün dünyaya tanıtdırıb. Qarabağ torpağı həmçinin, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşudbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Mir Mövsüm Nəvvab, Fatma xanım Kəminə, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov, İlyas Əfəndiyev və başqa sənətkarların vətənidir.

Heyif ki, ötən 28 il ərzində ruhumuz, canımız qədər əziz olan ulu Qarabağın, Şuşanın dözülməz həsrətində qaldıq... Xalqımız bu dərddən, bu faciədən doğan hisslərini yanıqlı bayatılara çevirdi:

**Sənsizlik üzdü məni,**
**Yollara düzdü məni.**
**Dərdlilər sırasına,**
**Həsrətin yazdı məni.**

Ancaq buna da özümüz qədər inandıq ki, biz Qarabağa, Şuşaya yenidən qayıdacağıq. Bu torpağı isə ancaq igid əsgərlərimizin, vətənpərvər gənclərimizin qəhrəmanlıq ruhu, cəsarət və igidliyi qurtaracaq. Özünə “Azərbaycan türkü”, “azərbaycanlı” deyən hər bir insanın ürəyində hər zaman Qələbə arzusu, işğal olunmuş doğma Qarabağımızın, Şuşamızın azad edilməsi istəyi vardı. Hamı inanırdı ki, qeyrətinə, igidliyinə güvəndiyimiz, cəsarət və hünərinə bel bağladığımız Şanlı Azərbaycan Ordusu, qəhrəman Vətən

övladları bizi illərlə həsrətini çəkdiyimiz Qarabağımıza, Şuşamıza əbədi olaraq qovuşduracaqdır.

Tarix heç nəyi unutmur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu qələbədən düz 14 il əvvəl - 2006-cı ildə - Milli Məclisin payız sessiyasının açılışında belə demişdi: “Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istəyinə nail olacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olacaqdır. Mən buna şübhə etmirəm”.

Dövlətimizin rəhbəri, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi də oldu. Və nəhayət, o gün gəldi. 2020-ci il noyabrın 7-dən 8-nə keçən gecə Qəhrəman Azərbaycan Ordusu, igid əsgərlərimiz, yurdumuzun könüllü olaraq cəbhəyə gedən fədakar oğulları Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Şuşanı tarixdə misli görünməmiş bir şəkildə - əlbəyaxa döyüşlə, tapança, avtomat, süngü ilə erməni işğalçılarından azad etdilər. Buna qədər isə Şanlı Ordumuz 4 şəhərimizi - Cəbrayılı, Füzulini, Zəngilanı və Qubadlını, 4 qəsəbəni, 300-ə yaxın yaşayış məntəqəsini və eləcə də çoxsaylı strateji yüksəklikləri işğaldan azad etmişdi. Noyabrın 10-da isə bütün bu şanlı zəfərlərin məntiqi nəticəsi olaraq, Azərbaycan Ermənistan üzərində layiq olduğu və haqq etdiyi Qələbəni qazandı. Bu tarixi Qələbənin Bakıda, eləcə də Azərbaycanımızın hər bir guşəsində nə qədər böyük ruh yüksəkliyi, sonsuz coşğu ilə qeyd edildiyinin canlı şahidiyəm... Mən özüm isə həmin anlarda bu mövzunu yaza bildim və istər-istəməz unudulmaz Xalq şairimiz Səməd Vurğunun bu misraları fikrimdən keçdi:

**Könlüm keçir Qarabağdan,**
**Gah o dağdan, gah bu dağdan.**
**Axşam üstü qoy uzaqdan,**
**Havalansın Xanın səsi,**
**Qarabağın şikəstəsi.**

Qoy, Xan Şuşinskinin “Qarabağın şikəstəsi” heç zaman köksündən əksik olmasın, Doğma Qarabağım, Müqəddəs Şuşam!